# Poeziyanın, elmin və təsviri sənətin münasibətləri üzərinə

*Azər ƏHMƏDOV*

***Elm dedikdə biz science nəzərdə tuturuq, təbiət elmlərini - bura riyaziyyatı da aid edəcəyik. Poeziya dedikdə poetry nəzərdə tutulur, şeir sənəti, şeiriyyat - biz daha çox şeiriyyat mənasında işlədəcəyik bu sözü. Təsviri sənətlər içərisində əsasən rəssamlıq üzərində dayanacağıq. Yaradıcı əməyin bu üç sahəsinin bir-birilə münasibətlərinin tədqiqi antik dövrlərə gedib çıxır. Ələqəli şəkildə olsa da biz Poeziya-Elm-Rəssamlıq üçbucağının hər üç tərəfi barədə ayrıca bəhs etmək istəyirik.***

**Müəllif.**

## I. Poeziya - Elm Tərəfi

**Şairlər həyatın poeziyasını yazırlar, alimlər təbiəti kainatı öyrənirlər. Bu iki fəaliyyət növü bir-birinə xeyli transversal (hətta perpendikulyar) kimi görünməkdədir. Onda bəs niyə deyirlər ki, həqiqəti alim yox, şair bulur?**

Alim doğrudan da həqiqətin peşindədir. O, həqiqətə inanır (vurğu həm "həqiqət"in, həm də "inanır"ın üstündədir), həqiqəti sevir. Həqiqətə sadiqdir! Bu haqda aşağıda ətraflı bəhs edəcəyik, amma "sevmək", "inanmaq" (həm də) teoloji terminlər deyilmi? Elm dindirmi? (20+ il öncə, qısa müddətə də olsa xristianlığın təsiri altında olduğum vaxtlarda, müəllimim və dostumun mənə "neynirsən o dini, sənin məşğul olduğun elm özü elə din deyilmi, ondan zəngin din varmı?" deməsi çox sarsıtmışdı məni.)

Alim həqiqətə təkcə inanmır, o həqiqiətə çatmaq üçün vasitələrə, bilikbacarıqlara yiyələnir, ömrünü həsr edir buna. Hər cürə hiyləyə əl atır həqiqəti bulmaq üçün, iztirab çəkir, ümidlər bəsləyir, bu ümidləri sürdürə bilmək üçün öz içində emosional resurslar arayır. Bəs şair? Onun həqiqətə sədaqətli olmasını iddia etmək qəribə, hətta absurd görünər. Şairin sevdiyi, inandığı həqiqət deyilsə, yaxud tanrı deyilsə bəs nədir? Alim onilliklər ərzində öz arzularına çatmaq üçün qara fəhləlik edərkən, gündəlik olaraq təvazökarcasına işilə məşğul olarkən şair bütün bunların üstündən adlayıbkeçib də necə bulur o həqiqəti? Nədir şairin bulduğu? Poeziya nədir?

Poeziya düşüncənin gözəlliyidir - bəzən belə tərif də verirlər. Məhz bu tərifə əsaslansaq, məsələn, riyaziyyatın (və nəzəri fizikanın) böyük bir hissəsi poeziyadır. "Gözəldir", "gözəl teoremdir (isbatdır, ideyadır, arqumentdir və s.)" riyaziyyatçıların tez-tez, gündəlik olaraq işlətdiyi ifadələrdir. Bir riyaziyyatçı aldığı nəticənin vacibliyindən bəlkə daha çox gözəlliyi ilə heyran etmək istəyir öz həmkarlarını. Biz həqiqət arayırıq, amma onu tapanda görürük ki, o həqiqət həm də nə qədər gözəlmiş - bir məşhur riyaziyyatçıdan eşitmişəm bu sözü. Andrew Wiles 350 il açıq qalmış Fermat problemini həll etməsi barəsində danışır:"ideya [əsas ideyalardan biri] o qədər gözəl idi ki, mən heç cür inana bilmirdim bunun həm də doğru olmasına, amma bir müddət sonra qənaətə gəldim ki, bu qədər gözəl olan bir şey doğru olmaya bilməz!" Başqa bir elm nəhəngi Poincare (1854-1912) iddia edirdi ki, (həqiqi) riyaziyyat mütləq gözəl olmalıdır. Riyaziyyat öz daxili məntiqi və də təbiət elmlərindən durmadan daxil olan (zəngin) problemlərin tələbi ilə inkişaf edir, onun heç bir öhdəçiliyi yoxdur gözəllik barədə, amma çoxlu-çoxlu riyaziyyatçılar iddia edər ki, bu elmin əsas motivasiyası məhz harmoniya və gözəllikdir!

Düşüncənin (poetik kontekstdə) gözəlliyinə bir örnək üçün sevdiyim Amerika şairi Mark Strand'in "Şeyləri bütöv saxlamaq" ('Keeping Things Whole") adlı aşağıdakı şeirinə diqqət edək:

Bayırda
mən bayırdakı yoxluğam
bu həmişə belədir
hardayamsa
orda olmayan mənəm
Yeriyəndə
havanı yarıram
Sonra hava
bədənimin keçdiyi yeri
doldurur.
Hamımızın hərəkət üçün
səbəbimiz var. Mənimki
şeyləri bütöv saxlamaqdır.

Şair sanki alim kimi danışır bu şeirdə, amma gözlənilmədən məftunedici poetik kəşflə bitir şeir. Əslində şeir bir alim üçün də maraqlıdır, elmi məzmunu da var onun. Amma məsələ elmi cəhətdən maraqlı, hətta korrekt olmaqda deyil. Şairin sanki özünün (deyəlim, fizikaya) parallel bir elmi (psevdo-elmi) var, bu elmin də özünün ayrıca maraqlılıq və korrektlik standartları var.

Psevdo-fizikaya aid sevdiyim Azərbaycan şairindən başqa bir örnəyə baxaq:

**Saat**

artıq bir işə yaramır
pili bitmiş bu saat
demək
zaman burada
dırnaq böyüklükdəki
bu güc mənbəyində imiş
hardan biləsən bəlkə də
zaman elə güc deməkdir

R.Q.

Bu şeirin qiyməti son iki misradadır; iddia edirəm ki, hər bir savadlı adamın diqqətini cəlb etməlidir bu cümlə, düşüncələrini məşğul etməlidir (elə Mark Strand'in bir sözü var ki, yaxşı şeir o şeirdir ki, ona təkrar-təkrar qayıtmağa və yenidən tədqiq etməyə sövq edir).

### Elmi mövzuları şeirə gətirməyin çətinliyi barədə

Yuxarıdakı iki nümunə belə bir sual da doğurur: olmazmı ki, şair elə birbaşa olaraq elmin poeziyasından yazsın? Olar, əlbəttə, hər zaman yazılıb da. Biologiya, kimya, fizika, riyaziyyat, coğrafiya, geologiya və s. elmi mövzularda yüzlərlə yaxşı şeirlər tapıb oxumaq olar internetdə, bunların bir çoxu elə həmin elmlərlə məşğul olan müəllifər tərəfindən yazılıb. Elmi mövzularda çoxlu şeir kitabları çap olunub. ABŞda "Journal of Mathematics and the Arts", "Journal of Literature and Science", "Journal of Mathematics and Music" və başqa bu cür keyfiyyətli elm-sənət arası dərgilər çıxır. Mən iddia edərdim ki, istənilən yaxşı riyazi teoremin həm də maraqlı, qeyri-trivial poetik məzmunu da var. Riyaziyyatçı bu məzmundan yığcam bir şəkildə bəhs edərsə şeir deyil də amma yenə də poetik qiyməti olan bir mətn çıxar ortalığa. Çətiniliyin biri bu mətni bitkin bir şeirə çevirməkdir. (Mətni yazıb sonra da ona zorla şeir paltarı geyindirmək kimi kobud bir cəhd çətin ki, uğur qazandira.)

20+ il öncə bir tanışım mənə "xoşbəxt adamsan, gəzirsən özünçün sonsuz ölçülü fəzalarda, qəribə həndəsələri olan dünyalarda" dediyində xoşbəxtlik barədə onunla razılaşsam da həm də hiss edirdim ki, tanışımı ilgiləndirən təkcə elm (həqiqət) deyil, onun həm də (görünür ki, bizim ənənəvi milli şeirimizdən ala bilmədiyi) poeziyaya ehtiyacı var. (Adamların hamısının əslində poeziyaya çox dərin ehtiyacları var. William Carlos Williams yazırdı: "Şeirdən informasiyanı çıxartmaq çətindir, amma bu informasiyanın yoxluğundadır ki, hər gün nə qədər adam ölür!") Əslində bizim eyni zamanda həm elmə, həm də sənətə ehtiyac duymamız çox təbiidir. Bunların hansısa birindən imtina etmək səfehlik olardı, çünki elm və sənət növlərinin heç hamısı bir yerdə bizə bəs eləmir! Niyə bəs eləmir bizə bunlar hamısı, nədir bizdəki bu əcaib ehtiyac? Biz niyə özümüzü doyura bilmirik?!

Digər bir məsələ, elmi və artistik təfəkkür bir-birinə mane ola bilərmi? Mümkündürmü ki, elm ürəyi qurudur, ondakı poeziyanı məhv edir? Öz fəlsəfi esselərində bu sualı qaldıran Poincare iddia edirdi ki, tərsinə, elm o ürəkdə yeni-yeni duyğular yaradır, o ürəyi zənginləşdirir! (Bəzən şeiri anlamayanda elə düşünürük ki, buna səbəb mütaliə azlığı, hazırsızlıq, intellektual zəiflikdir, amma unuduruq ki, səbəb məhz duyğu çatışmazlığı da ola bilər!)

25 il öncə oxumuşam Poincare'nin fəlsəfi əsərlərini - tarix dəqiq yadımdadır; "Elm və hipoteza" (1902), "Elmin qiyməti" (1905), "Elm və metod" (1908) və "Son düşüncələr" (1913) kitablarının rusca tərcümə edilib bir yerə toplandığı "O nauke" adlı çox qalın bu kitabı sinif yoldaşım (həm orta məktəbdə, həm də universitetdə) Anar Hüseynov vermişdi mənə. Riyaziyyatın (elmin) fəlsəfi və sənət aspektlərinə qarşı marağı bu kitab başladıb məndə. Ən azı o vaxtdan bəri, həmişə diqqətli olmuşam öz peşəmin poeziyasına qarşı, bu poeziyanı şeirə çevirmək barədə fikirlərim, arzularım olub - amma razı qaldığım cəmisi 3-5 şeir yaza bilmişəm. "4D" adlı şeirim 4-ölçülü həqiqi fəzanın çox bəsit topoloji xassələri üzərində qurulub. Şeirin həm sətri, həm də bir riyazi faktdır, hökmdir. Bunları anlamaq üçün riyaziyyatçı olmağa gərək yoxdur, əslində hər bir artistin, hər br savadlı, mədəni adamın bilməli olduğu topoloji xassələrdir bunlar. Oxucudan təsəvvür qabiliyyəti və azacıq səy tələb edir, əvəzində ümidvaram ki, ləzzət vəd eləyir. Amma digər tərəfdən bu həm də bir sevgi şeiridir, oxucu onu sirli, qəribə bir mühitdə iki sevgili arasında şəhvani münasibətlərin təsviri kimi də qəbul edə bilər. Əlbəttə, bu iki təsvir yanaşma ələqəlidir, bir-birinə hörülüb.

Vurğulamaq istərdik ki, şeiriyyat təkcə elmi faktların, kəşflərin məzmununda deyil, elmi tədqiqat prosesinin özü də poetik elementlərlə, momentlərlə zəngin olur. Məşhur bioloq Edward Wilson'un dediyi kimi, ideal alim şair kimi düşünür! Məsələn bir orijinal problem üzərində işləyərkən riyaziyyatçı (çox zaman) problemə necə yanaşacığını bilmir, xeyli müddət problemin ətrafında dolanır. Sonradan onda ideyalar yarana bilər problemin həllinə doğru. Öz təcrübəmdən və həmkarlarımın təcrübəsindən deyə bilərəm ki, ideya eybəcərsə, ondakı poetik yük azsa riyaziyyatçı çox zaman ideyanı heç yoxlamır da. Ümumiyyətlə, alim elmi obyektin poeziyasından ilhamlanır. Bu yerdə zəmanəmizin böyük (ərəb mənşəli ingilis) riyaziyyatçısı Michael Atiyah'dan bir sitat yerinə düşür: "Riyaziyyatçılar gündüz gün işığında öz tənliklərini və isbatlarını yoxlayırlar. Bir daş belə qalmır ki, riyazi ciddiyyət ona toxunub qaldırmasın, kontrol etməsin. Amma gecələr, ay işığında, onlar yuxular arzular dünyasına qərq olurlar, ulduzların arasında uçurlar, kainatın möcüzələrinə heyrət edirlər. Yuxularda onlar ilhamlanırlar. Yuxularsız nə sənət var, nə riyaziyyat, nə həyat". (Burda qeyd etməyə ehtiyac var ki, ingiliscədə "yuxu" və "arzu" sözləri eynidir: "dream" - nə qədər poetikdir dildəki bu fakt!)

Alim poeziyadan ilhamlanıb elm yaratdığı halda, şairin vəzifəsinin o poeziyanı sadəcə "nəzmə çəkmək" olduğunu düşünmək şeir sənətinə saygısızlıq olardı. Bizcə, elmi mövzularda ideal şeir təkcə elmi məzmundakı poeziyanın "uğurlu bədii həlliifadəsi" deyil, həmin elmi mövzuya nəsə qatan bir şeirdir. Şair də gərək alimi heyrətləndirə!

Digər bir çətinlik, hansisa konkret bir elmi mövzuda şeir yazan şair əgər o elmdən xəbərdar deyilsə böyük risk qarşisında qalır. Söhbət təkcə elmi korrektlikdən getmir. Şair deyəlim hansısa elmi faktı poeziyaya gətirirsə əmin olmalıdır ki, onun poeziyası həmin o faktın alimlərə yaxşı bəlli olan poetik məzmunu ilə müqayisədə kölgədə qalmayacaq, nəticədə şair alimlər qarşısında istehza hədəfinə çevrilməyəcək. Tutalım şair cazibə qüvvəsindən yazmaq istəyir. Bir cismin başqa cismi cəzb etməsi kimi olduqca qəribə (ağlasığmaz) və son dərəcə poetik bir iddianın əslində həqiqət olması, həm də alimlərin (Isaac Newton'un) ilkin olaraq bu iddiaya məhz onun riyazi cəhətdən özünü doğrultması (gözəl olması!) üçün inandıqları kimi faktları bir tərəfə qoyub sadə bir müşahidə edək: masanın üstündəki əşyaları Yer özünə cəzb edir, amma biz bu boyda planetin cazibəsinə asanlıqla qalib gələ bilərik - əlimizi atıb masadakı fincanı yerindən qaldırmaqla. Yerin cazibəsi niyə bu qədər zəifdir? Böyük Partlayışdan sonra qalaktikaların, ulduz sistemlərinin, planetlərin formalaşmasına səbəb olan bu əsas qüvvə niyə bu qədər zəifdir? Adam hətta çığırmaq istəyir - ey yeri-göyü yaradan, sən niyə bu qədər gücsüzsən?! Zəiflik nisbi anlayışdır deyə bilərsiniz, amma bu sualı fiziklər doğrudan da və çoxdandır ki, araşdırırlar. Cazibə qüvvəsi doğrudan da başqa məlum fundamental təbiət qüvvələri ilə müqayisədə inanılmaz dərəcədə çox-çox kiçikdir ("coupling constant" deyilən kəmiyyəti ölçürlər müqayisə üçün). Bu qüvvənin təbiətini izah etmək üçün (axı bu cəzbetmə necə baş verir?) fiziklər əzəmətli bir elm dikəldiblər. Şair bu əzəmətin qarşısına nə ilə, nəyi ilə çıxasıdır?

...Kainatın (və kainatların) yaranışından söz düşmüşkən, müasir fizika indi çox fantastik nəzəriyyələr irəli sürür bu haqda, heç bir ədəbiyyat, sənət, yazar bu fantastika ilə yarışa bilməz! Bu sahədə tədqiqat aparan öncüllərin mühazirələrinə qulaq asmışam, danışıb-danışıb axrıda özləri özlərinə gülürlər - "kainat cox qəribədir, biz bu qədər də gözləmirdik, amma o belədir". Tanrı bizi ələ salır, o, artıq ciddiyyətini itirib!